

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 157 (23.799)

28 avqust 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə digər sahələr kimi muzey işi də diqqətdə saxlanılmışdır. Bu gün ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında tarixi-mədəni irsimizin qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni muzeylər inşa edilir, fondlar zənginləşdirilir. Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikilməsi də bu tədbirlərin davamıdır.

Avqustun 27-də Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.





Muzeyin direktoru Xavər Ələsgərli demişdir ki, muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirləri qədim diyarımızın mədəniyyət sahəsini də əhatə etmişdir. Bu gün Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər görülür. Yeni muzeylər yaradılır, fondlar zənginləşdirilir, muzeylərin internet saytları istifadəyə verilir. Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Xavər Ələsgərli yaradılan şəraitə və göstərilən qayğıya görə muzey əməkdaşları adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi və rayon sakinlərini təbrik edərək demişdir: Tarix-diyarşünaslıq muzeyləri ölkəmizin hər bir bölgəsinin tarixini özündə yaşadan yerlərdir. Şahbuz rayonu da ölkəmizin qədim guşələrindəndir. 1982-ci ildə ümummilli lider Heydər Əliyevin rayonlarda tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında Qərarından sonra Şahbuz rayonunda da 500 eksponat fondu olan muzey yaradılmışdır. Ötən dövrdə muzeyin fondu zənginləşdirilmiş, 5 minə yaxın eksponat toplanmışdır. Muzey ötən dövrdə uyğunlaşdırılmış binada fəaliyyət göstərmişdir. Lakin bu gün muzey üçün müasir bina istifadəyə verilir və bu da fəaliyyətə müsbət təsir göstərəcəkdir.

Ali Məclisin Sədri demişdir: Müstəqillik illərində muzeylərin fəaliyyətinin təşkili sahəsində təqdirəlayiq işlər görülmüş, muzeylərə gedişlərin sayı artmışdır. Bu da xalqımızın öz tarixi-mədəni irsinə verdiyi dəyərin göstəricisidir. Artıq bu gün muzeylərimiz xalqımızın qəhrəmanlıq tarixini gənclərimizə çatdırır. Ümumtəhsil məktəblərində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin “Tariximizi qoruyaq və yaşadaq!” devizi altında həyata keçirdiyi aksiya gənclərimizin öz tarixi-mədəni irsinə sahiblik istiqamətində atılmış addımdır. Bu illər ərzində minlərlə eksponat toplanaraq rayon tarix-diyarşünaslıq və digər muzeylərimizə təhvil verilmişdir. “Tariximizi qoruyaq və yaşadaq!” aksiyası bundan sonra da davam etdirilməli, gənclərimizin qəhrəmanlıq dolu keçmişimizlə tanış olmalarına şərait yaradılmalıdır.

Ali Məclisin Sədri demişdir: Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tarix-diyarşünaslıq muzeylərindəki eksponatlar və arxiv sənədləri əsasında muxtar respublikanın hər bir rayonunun tarixini yazmalıdır. Bu muzeydə nümayiş olunan eksponatlar da Şahbuz rayonu ərazisində yaşamış insanların min illər bundan əvvəlki həyat tərzini əks etdirir. Ona görə də bunlar qorunmalıdır. Muzey daim fəaliyyətdə olmalı, “Açıq qapı” günləri keçirilməli, ümumtəhsil məktəbləri və digər yaradıcı təşkilatlarla əlaqə saxlanmalı, tarixi-mədəni irsimiz haqqında gənclərimiz məlumatlandırılmalı, muzeylərə gedişlər təmin edilməlidir.



Qeyd olunmuşdur ki, muzey fondlarının zənginləşdirilməsində vətəndaşlarla iş mühüm məsələdir. Sakinlərin bu gün muzeylərə təqdim etdikləri tarixi əşyalar gələcək nəsillər üçün çox qiymətli eksponatlardır. Ona görə də muzeylər, ilk növbədə, əhali ilə işə diqqət yetirməlidir. Kənd mərkəzlərində görüşlər keçirilməli, tariximizlə bağlı məlumatların, eləcə də eksponatların qorunması haqqında sakinlər maarifləndirilməlidir. Yaradılan şərait imkan verəcək ki, Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi də öz işini bu tələblər səviyyəsində qura bilsin.



Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamışdır.

Bələdçi Nurşən İbrahimova muxtar respublikada tarixi-mədəni irsimizin qorunub saxlanılması sahəsində görülən işlərə görə minnətdarlıq edərək demişdir: “Muxtar respublikada digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafında da dövlətimizin diqqət və qayğısı daim hiss olunur. Son illərdə muzeylərin tikilib istifadəyə verilməsi, ekspozisiyaların qurulması, muzey fondlarının zənginləşdirilməsi də məhz bu qayğının ifadəsidir. Bu gün Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün müasir binanın istifadəyə verilməsi kollektivin sevincinə səbəb olmuşdur. Bundan sonra da tarixi-mədəni irsin qorunub saxlanılmasında, təbliğ olunmasında, muzey işinin yaxşılaşdırılmasında səylə çalışacaq, göstərilən etimadı doğruldacağıq”.

Sonra muzeyə baxış olmuşdur.

Məlumat verilmişdir ki, binanın birinci mərtəbəsində direktor, 2 fond, iş otağı və qarderob, ikinci mərtəbədə isə ekspozisiya zalı yerləşir. Muzeydə arxeologiya, məişət-etnoqrafiya, dekorativ-tətbiqi sənət, rəssamlıq, numizmatika, foto və sənədlər bölmələri fəaliyyət göstərir. Muzeyin ekspozisiyasında 536 eksponat nümayiş etdirilir. Hazırda fondda 4 min 679 eksponat vardır.

Ekspozisiyada ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şahbuz rayonuna səfərlərini əks etdirən guşələr, eyni zamanda torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərin, rayonda mövcud olan yeni quruculuq ünvanlarının, eləcə də Şahbuzun füsunkar təbiətini əks etdirən müxtəlif fotolar və Şahbuz rayonunun inzibati-siyasi xəritəsi nümayiş etdirilir. Şahbuz bölgəsində yerləşən müxtəlif nekropollarda aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi mədəniyyət nümunələri – obsidianlar, ox ucluqları, saxsıdan hazırlanmış müxtəlif məişət əşyaları, həvəngdəstələr, Kükü, Sarıdərə, Kolanı, Haqqıxlıq nekropollarından əldə edilmiş saxsı qab parçaları, tuncdan hazırlanmış xəncərlər, bəzək əşyaları, sümükdən və əqiqdən hazırlanmış zinət əşyaları muzeyin ekspozisiyasında saxlanılır və nümayiş etdirilir. Həmçinin muzeydə misdən hazırlanmış məcməyi, sərnic, satıl, parç, şamdan, samovar, yerli sənətkarlar tərəfindən nəfis tərtibatla toxunmuş xalça, kilim, cecim, heybə, xurcun, məfrəş, yəhərqaşı, müxtəlif nəbati naxışlarla toxunmuş yun corablar, yüksək zövqlə hazırlanmış bədii tikmələr, gümüş bəzək əşyaları, XIX-XX əsrlərə aid soyuq silahlar, eləcə də tarixən ölkəmizdə dövriyyədə olmuş mis və gümüş pul nümunələri, görkəmli rəssamlarımızın kağız və kətan üzərində müxtəlif üsullarla çəkdikləri rəsm əsərləri nümayiş olunur.

Ardı 2-ci səhifədə



Binanın həyətində abadlıq işləri aparılmış, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

Ali Məclisin Sədri muzey fondunun və ekspozisiyanın zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi üçün tikiləcək yeni binanın layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, layihəyə əsasən 3 mərtəbədən ibarət olacaq binada Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi fəaliyyət göstərəcək. Müasir iş şəraiti yaradılacaq binada mərkəzi server və aidiyyəti üzrə iş otaqları nəzərdə tutulmuşdur.

Ali Məclisin Sədri işlərə başlanılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**





## Zəfər bayramı Türkiyə xalqının qəhrəmanlıq tarixidir

*Hər il avqust ayının 30-u Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü kimi qeyd olunur.*

Qardaş Türkiyə xalqı 1919-cu ildə öz dövlətçiliyini qoruyub saxlamaq və Vətəni işğaldan azad etmək uğrunda mübarizəyə başladı. 1920-ci il 23 apreldə Anadoluda Türkiyə Böyük Millət Məclisi təsis edildi, xalqın iradəsinə əsaslanan, xalqı təmsil edən hökumət quruldu, bütün cəbhələrdə düşmənlərə qarşı uğurlu hərbi əməliyyatlar başlandı. İlk qələbələr Şərq cəbhəsində erməni quldur dəstələri üzərində qazanıldı. 1921-ci ilin avqust-sentyabr aylarında Sakarya müharibəsində yunan qoşunlarının məğlub olması ilə türk ordusu müdafiə mövqeyindən hücum mövqeyinə keçdi. Görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan Türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazandı. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil oldu. Qurtuluş savaşında Azərbaycan xalqı da qardaş Türkiyə xalqına dəstək oldu, döyüşlərdə iştirak edərək şəhidlər verdi.

Azərbaycan-Türkiyə əlaqələri böyük tarixi köklərə malikdir. Həmin əlaqələrin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır. Qardaş türk xalqının öndəri Mustafa Kamal Atatürkün ***"Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir"*** və ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir"*** kəlamları Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini ifadə edir. Bu konsepsiya hər iki dövlətin rəsmi mövqeyinin əsasında dayanır, qarşılıqlı əlaqələrin qədim tarixi köklərini, eləcə də siyasi, iqtisadi və mədəni əməkdaşlığın təməl prinsiplərini müəyyənləşdirir.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə – 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyi dövründə isə qardaşlıq münasibətləri daha da genişləndirilmiş, Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlər üzrə inkişaf etdirilmişdir.

Bu gün Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Ölkə prezidentlərinin iradəsinə uyğun olaraq ikitərəfli münasibətlərimiz yeni mərhələyə qədəm qoymuşdur. 44 günlük Vətən müharibəsində Türkiyənin göstərdiyi siyasi dəstək Azərbaycanın haqq işinin qazanılmasında böyük rol oynadı. İkinci Qarabağ müharibəsindəki tarixi Qələbə eyni dil, din və tarixi köklərə malik olan qardaş ölkələrin həm də hərbi-siyasi əməkdaşlığına, iqtisadi əlaqələrinə və diplomatik gücünə, Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsinə töhfə verdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Bu bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə, bəlkə də, ən yüksək səviyyədədir".***

2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzaladılar. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edəcəkdir. Eyni zamanda Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Bununla yanaşı, tərəfdaşlığın əhəmiyyətini və ölkələrimizin qüdrətini artıran hərbi sənaye sahəsində əməkdaşlıq məsələləri də Bəyannamədə qeyd olunmuşdur. Sənəddə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilmişdir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı uğurlu əməkdaşlıq da ölkələrimiz və xalqlarımız arasındakı strateji tərəfdaşlığa öz töhfəsini verməkdədir. Ordu quruculuğu, iqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Xüsusilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq ilbəil genişləndirilir. Ənənə halını almış birgə hərbi təlimlər uğurlu əməkdaşlığın nəticəsidir. Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın 2019-cu ildə Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlməsi dostluq və qardaşlıq münasibətlərinin günü-gündən gücləndiyini bir daha təsdiq etdi.

Azərbaycan-Türkiyə dövlətlərarası münasibətləri getdikcə daha da inkişaf edəcək, möhkəmlənəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaqlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığımızı daha da möhkəmləndirir".***

**"Şərq qapısı"**

## Gömrük orqanları ilə karqo şirkətləri arasında elektron məlumat mübadiləsinə başlanılıb



Gömrük orqanları ilə karqo şirkətləri arasında əməkdaşlığın artırılması istiqamətində görülən işlər müzakirə olunub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən iclasda komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 6 mart 2021-ci il tarixli, 57 nömrəli Qərarına əsasən muxtar respublikada sürətli poçt xidmətlərinin təşkili, müvafiq qaydada lisenziya almış şirkətlər tərəfindən fəaliyyətin müasir dövrün tələbləri səviyyəsində təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışıb. Qeyd olunub ki, qısa müddətdə görülmüş məqsədyönlü işlərin nəticəsidir ki, artıq Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətləri müasir tələblər səviyyəsində qurulub, insanların rahatlığı təmin olunub, gömrük orqanları ilə karqo şirkətləri arasında səmərəli əməkdaşlıq platforması yaradılıb. Bu tədbirlərin davamı olaraq yeni proqram təminatı hazırlanaraq karqo şirkətləri ilə gömrük orqanları arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsinə start verilib. Funksionallığı ilə seçilən proqram təminatı bu sahədə mövcud tələblər və karqo şirkətlərinin təklifləri nəzərə alınmaqla gömrük orqanı əməkdaşları tərəfindən hazırlanıb. Bununla da gömrük orqanları ilə karqo şirkətləri arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsinə ölkəmizdə ilk dəfə olaraq Naxçıvanda başlanılıb.

Komitənin Gömrük əməliyyatlarının və risklərin idarə edilməsi bölməsinin böyük inspektoru, gömrük xidməti leytenantı Turqut Abbasov karqo fəaliyyətinin qanunvericiliyə uyğun olaraq həyata keçirilməsi ilə bağlı görülən işlərdən, sürətli poçt xidmətlərinin göstərilməsi üçün yaradılan şəraitdən danışıb. Diqqətə çatdırılıb ki, sürətli poçt göndərişləri və onların çatdırılmasına, həmçinin qanunvericiliklə qadağan olunan malların daşınmamasına dair tələblər daim diqqətdə və nəzarətdə saxlanılmalı, gömrük məqsədləri üçün mal-müşayiət sənədləri düzgün təqdim olunmalı, lisenziyasız çatdırılma xidməti göstərmək istəyən şəxslərə şərait yaradılmamalıdır.

Sonra karqo şirkətlərinin gömrük orqanları ilə elektron məlumat mübadiləsi üçün hazırlanmış proqram təminatının təqdimatı olub. Komitənin Texnoloji innovasiyalar və statistika bölməsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Emin Eylazov yeni proqram təminatından istifadə qaydaları barədə məlumat verərək bildirib ki, sürətli poçt göndərişləri ilə bağlı məlumatların əvvəlcədən ötürülməsi sərhədkeçmənin, gömrük nəzarəti və rəsmiləşdirilməsinin sürətli formada həyata keçirilməsinə, risk analizinin düzgün aparılmasına əlverişli imkan yaradır.

Tədbirdə karqo şirkətlərinin nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, müzakirələr aparılıb.

Sonra karqo şirkətlərinin gömrük orqanları ilə elektron məlumat mübadiləsi üçün proqram təminatının hazırlanmasında əməyi olan gömrük əməkdaşları mükafatlandırılıb.

Tədbirə yekun vuran komitə sədri gömrük orqanları ilə karqo şirkətləri arasında əməkdaşlığın muxtar respublikaya sürətli poçt xidmətləri vasitəsilə gətirilən bütün mallar üzərində gömrük nəzarətinin tələb olunan səviyyədə həyata keçirilməsi, gömrük sahəsində hüquqpozma hallarına yol verilməməsi və təhlükəsizliyin təmin edilməsi baxımından əhəmiyyətini qeyd edərək qarşılıqlı fəaliyyətin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Gömrük Komitəsinin***
***mətbuat xidməti***

## Yenidən qurulan yaşayış binasında son tamamlama işləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, 2021-ci ilin yanvar-iyul aylarında muxtar respublikada vəsait qoyuluşları çərçivəsində bütün maliyyə mənbələrindən əsas kapitala 596 milyon 951 min 400 manat vəsait yönəldilib. Bu ötən ilin müvafiq dövründəki göstəricidən 0,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 572 milyon 178 min 100 manatı və ya 95,9 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Bu da cari ildə də tikinti-quruculuq tədbirlərinin həyata keçirilməsinə imkan verib. Hazırda muxtar respublikanın ayrı-ayrı ünvanlarında həmin tədbirlər davam etdirilir. Belə ünvanlardan biri də Culfa şəhəridir. Qeyd edək ki, digər bölgələrimizdə olduğu kimi, Culfa rayonunda da aparılan kompleks quruculuq tədbirləri sırasında yaşayış binalarının tikintisi və əsaslı şəkildə təmiri başlıca yer tutur. Hazırda rayon mərkəzinin Elşad Nağıyev küçəsində mövcud olmuş obyektdə inşaat işləri aparılır. Burada nəzərdə tutulmuş üçmərtəbəli yaşayış binasının inşasına ötən ilin iyul ayından başlanılıb. İnşaat işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsi həyata keçirib. Artıq tikinti işləri tamamilə başa çatdırılıb.



İş icraçısı Faiq Allahverdiyevdən aldığımız məlumata görə, 18 mənzilli yaşayış binası iki girişdən ibarətdir. Mənzillərdən 12-si üçotaqlı, 6-sı isə ikiotaqlıdır. Bütün mərtəbələrdə elektrik, istilik, kanalizasiya sistemi quraşdırılıb, su xətti çəkilib. Binanın bütün mərtəbələrində kafel döşəmə işləri həyata keçirilib. Binanın fasad hissəsində möhkəmliyi təmin etmək üçün beton gücləndiricilər qurulub.

İnşaat işlərinin yerinə yetirilməsində yerli inşaat materiallarından istifadə olunub, keyfiyyət amilinə ciddi diqqət yetirilib.

Yenidən qurulmuş yaşayış binasında hazırda son tamamlama işləri görülür. Belə ki, binanın həyətində uşaqlar üçün əyləncə, sakinlərin istirahəti üçün park, avtomobillərin saxlanılması üçün dayanacaq yaradılır.

**Xəbərlər şöbəsi**

# Erməni terrorunun qurbanı: naxçıvanlı diplomat İbrahim Əbilov

***1920-ci il 23 apreldə Ankarada Türkiyə Böyük Millət Məclisinin ilk toplantısı keçirilmiş, milli hökumət təşkil olunmuş, eyni zamanda Azərbaycanda bolşeviklər hakimiyyəti ələ keçirmiş, Moskvaya bağlı yerli hökumət meydana çıxmışdı. Bu hökumətə rəhbər Azərbaycanın görkəmli dövlət xadimi, həkim, yazar Nəriman Nərimanov təyin edilmişdi. Yeni qurulan Ankara hökuməti Rusiya ilə siyasi əlaqələrə böyük önəm verməkdə idi. Türkiyə-Rusiya əlaqələrində Azərbaycan, Bakı önəmli yer tuturdu. Bu səbəbdən Bakıda təmsilçiliyin açılması çox gərəkli idi. TBMM hökuməti öncə bu əlaqələri ayrı-ayrı şəxslər və təşkilatlar vasitəsilə həyata keçirirdi. Amma hökumət xarici əlaqələrini dövlət sistemi içərisində formalaşdırmaq üçün fəaliyyətə başladı. Məhz buna görə 1920-ci ildə 12 avqust tarixli qərarla yazar Məmduh Şövkət Əsəndal Azərbaycanın nəzdində Türkiyə səfiri təyin edildi. O, Bakıya gəldi və bu vəzifəni 1924-cü ilə qədər yerinə yetirdi.***

Bakı və Ankara arasında münasibətlərin genişlənməsində Məmduh Şövkət bəy böyük rol oynadı. Eyni şəkildə Azərbaycanın da Türkiyə ilə münasibətlərini möhkəmləndirmək üçün bir təmsilçiyə böyük ehtiyacı var idi. Azərbaycan bu məsələni bir az sonra 1921-ci ildə həll etdi. Nəriman Nərimanov bu vəzifəyə yaxından tanıdığı, siyasi təcrübəsinə bələd olduğu İbrahim Əbilovu təyin etdi. İyul ayında səlahiyyətli səfir olaraq təyin olunmuş İbarahim Əbilovun hazırladığı 28 nəfərlik heyətin siyahısını 4 avqust tarixində Xalq Xarici İşlər Komissarı Mirzə Davud Hüseynova təqdim etdi.



Kimdir İbrahim Əbilov?! Azərbaycanın dövlətçilik tarixində özünəməxsus iz buraxmış dövlət adamlarından biri. Azərbaycan Sovet Respublikasının Türkiyədə ilk səfiri olmuş İbrahim Əbilov 1882-ci ildə Naxçıvanın Ordubad şəhərində doğulmuşdur. O, Məhəmməd Tağı Sidqinin Ordubaddakı "Əxtər" məktəbində oxuyub 1903-cü ildən etibarən Petrovsk-Portda (indiki Mahaçqala) və Bakıda fəhləlik etmiş, inqilabi hərəkata qoşularaq ilk Azərbaycan sosial-demokrat təşkilatı "Hümmət"in üzvü kimi fəaliyyət göstərmişdir.

İbrahim Əbilovun səfirliyi dövründə Anadoluda vəziyyət olduqca qarışıq idi. Yunan ordusu irəliləməkdə, türk ordusu geri çəkilməkdəydi. Hətta TBMM-in Ankaradan köçürülməsi belə, gündəmdə idi. Ankaraya getmək üçün Tiflisə gələn İbrahim Əbilov və heyəti burada bir müddət gözləməli oldu. Çünki Azərbaycan hökuməti onu Qars konfransına Behbud ağa Şahtaxtinski ilə birlikdə nümayəndə olaraq göndərmək istəyirdi. Bununla əlaqədar Nəriman Nərimanov Tiflisə gəlmiş, məsələ müzakirə olunmuş, ancaq İbrahim Əbilovun tez bir zamanda Ankaraya getməsi qərara alınmışdı. Bu görüşdən sonra Əbilov və heyəti Batuma gəldi. Burada yunanlar üzərində türk ordusunun zəfər xəbərini alıb çox həyəcanlanmış və Atatürkə təbrik teleqramı göndərmişdi. 21 sentyabr sabahı "Reno" gəmisi ilə Batumdan ayrılıb sabahı gün Trabzon limanına yetişmişdilər. İ.Əbilov Girəsun, Samsun xəttilə 11 oktyabrda səfirlik əməkdaşlarının bir qismilə Ankaraya gəldi.

İbrahim Əbilov 14 oktyabr tarixdə Atatürkə etimadnaməsini təqdim etdi. Səfirlik binasının açılışı 18 noyabr tarixinə təsadüf etdi. Bu möhtəşəm mərasimdə Əbilovun xahişi ilə Azərbaycan bayrağı TBMM-in sədri və baş komandan Mustafa Kamal Paşa tərəfindən göylərə yüksəldildi. Türk dövlətinin böyük qurucusu dedi: "Əziz yoldaşımız Əbilov həzrətləri! Bu gün Azərbaycanın istiqlalını təmsil edən bayrağı göylərə yüksəldərkən əllərimin qeyri-adi hissiyyat və təəssürat ilə mütəhərrik olduğunu duyuram. Yüksəldən mənim əllərimdi, fəqət əllərimi təhrik edən bugünkü bayramda mənən müştərək olan bütün Türkiyə xalqının həqiqi və səmimi qardaşlıq hissiyyatı idi.

Səfir həzrətləri! Azərbaycan bayrağının Türkiyə bayrağı yanında Türkiyə səmasında dalğalanmasını görmək bütün millətimiz üçün böyük bir bayramdır. Bizə belə bir bayram günü yaşatdığınız üçün səmimi təşəkkürümü bildirirəm".

İbrahim Əbilov bu açılış mərasimindən sonra böyük bir ziyafət vermiş və bu sırada Azərbaycan-Türkiyə dostluğunun rəmzi olaraq TBMM-ə və Mustafa Kamal Paşaya Azərbaycan hökuməti və xalqı adından müxtəlif hədiyyələr təqdim etmişdir. Bu hədiyyələr arasında "Azərbaycan fəhlə və kəndli hökumətindən türk inqilabının qəhrəmanı Mustafa Kamal Paşaya yadigar" yazısı olan Qafqaz süvari ordusunun qızıl xəncəri də var idi.

İbrahim Əbilov Türkiyədə olduğu ilk günlərdə apardığı müşahidələrə əsaslanaraq Trabzon və Samsun şəhərlərində konsulluq idarəsinin açılması haqqında Azərbaycan Xalq Xarici İşlər Komissarlığına təklif göndərmişdi. Əbilovun göndərdiyi sənədlərə əsasən Azərbaycan Sovet hökuməti 1922-ci ilin baharında Trabzonda konsulluq açılması və Mirzə Davud Rəsulzadənin oraya katib təyin olunması haqqında qərar vermişdi.

Əbilov Ankaraya gəldiyi ilk gündən bəri Sovet-Türkiyə dostluğunu möhkəmləndirmək yolunda var gücü ilə səy göstərməkdə idi. O, Ankara ziyalıları ilə mehriban dostluq əlaqələri yaratmışdı. Elə buna görə də Türkiyədə İbrahim Əbilova ehtiram göstərir, İbrahim Məhərrəm bəy, – deyə çağırırdılar. İbrahim bəy Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Paşanın rəğbətini qazanmışdı. Bu sırada Sovet-Türkiyə münasibətlərinin inkişafında 1 100 000 qızıl rublu yardım olaraq Ankaraya gətirən Ukrayna Silahlı Qüvvələri baş komandanı M.Frunzenin böyük xidməti oldu. Dövlətlərarası münasibətlərdəki problemləri həll etmək, qarşılıqlı etimad şəraitinin yaranmasını təmin etmək mühüm məsələ kimi qarşıda dururdu. Bununla əlaqədar Ankarada Mustafa Kamal Paşa ilə M.Frunze və İbrahim Əbilov arasında bir çox görüşmə keçirilmiş və əlaqələrdəki problemlər müzakirə edilmişdi. Belə ki, naxçıvanlı diplomatın səyləri nəticəsində Moskva konfransında vəd edilən 10 milyon qızıl pulun 3,5 milyon rublu 3 may 1922-ci il tarixdə Ankara TBMM-ə təslim edilmiş, bundan əlavə, silah-sursat, çeşidli məmulat və dava-dərman kimi yardımlar bir qədər də artırılmışdır.

Bilindiyi kimi Qars müqaviləsi 13 oktyabr 1921-ci il tarixdə imzalanmış, amma bu anlaşmanın təsdiq olunması problemə çevrilmişdi. TBMM hökuməti bu anlaşmanı hər üç dövlətin imzalamasına ciddi əhəmiyyət verirdi. TBMM hökuməti Ermənistanla sülh müqaviləsi imzaladığını, erməni məsələsinin bu müqavilələrlə Ermənistan tərəfindən də qəbul edildiyini ixtilaf dövlətlərinə göstərmək və bu sahədə İxtilaf dövlətlərinin müdafiə etdiyi Sevr müqaviləsi (10 avqust 1920) hökmlərinin bir mənası qalmadığını ortaya qoymaq fikrində idi. Amma Zaqafqaziya Federasiyasının yaranması ilə bu anlaşmanın təsdiqi məsələsi istəyi təhlükəyə girmişdi. Türkiyə Xarici İşlər naziri Yusuf Kamal bəy bu problemləri İbrahim Əbilova bildirmiş, bu işin tez bir zamanda həyata keçirilməsinə kömək etməsini xahiş etmişdi. Yusuf Kamal bəyin inandırmasından sonra İ.Əbilov bu məsələni bilavasitə N.Nərimanov ilə görüşəcəyini və müqavilənin Türkiyənin istədiyi şəkildə həll edilməsini xahiş edəcəyini bildirmişdi. TBMM hökumətinin israrlı tutumu və Azərbaycan təmsilçisi İ.Əbilov və Azərbaycan rəhbəri N.Nərimanovun da köməyi və Sovet Rusiya hökumətinin razılığı ilə Qars müqaviləsinin təsdiqi məsələsi Türkiyənin istədiyi şəkildə həll edilmişdir.

Məlumdur ki, 12 mart 1922-ci il tarixdə Tiflisdə üç Cənubi Qafqaz respublikasının ortaq qərarı ilə Cənubi Qafqaz Sosialist Federativ Sovet Respublikası quruldu. Bu hadisədən sonra Azərbaycanın Türkiyədəki səfirliyinin də vəziyyətə uyğunlaşdırılması zərurəti ortaya çıxmışdı. İ.Əbilovun Türkiyədə qalması Azərbaycan KP Mərkəzi Komitəsi tərəfindən qərarlaşdırılmışdı. Bundan sonra Sovet Rusiyasının Türkiyə ilə dostluq münasibətlərini daha da genişləndirməsi, türk müstəqillik mücadiləsinə dəstək verməsi, şübhəsiz, Azərbaycan sovet hökumətini Türkiyə ilə münasibətlərində nisbətən arxayınlaşdırmışdır. Hər zaman olduğu kimi, həmin dövrdə də Azərbaycanda Türkiyəyə böyük sevgi var idi. Yuxarıda qeyd etdiyimiz kimi, bu işdə İ.Əbilovun böyük xidmətləri olmuşdur. Onu da qeyd edək ki, 1922-ci il sentyabr ayından sonra İ.Əbilovun səlahiyyətlərinin artırılması, səfirlikdə gürcü və erməni müşavirin də yer alması Əbilovu qısqananları daha da qəzəbləndirmişdi. Bu sahədə erməni mətbuat orqanları özəlliklə xüsusi rol oynamaqda idi. Məsələn, İstanbulda çıxan ermənicə "Cağadamard" qəzeti bu sahədə daha çox canfəşanlıq göstərirdi. "Peyami-sabah"qəzeti bu qəzetin məlumatına istinad edərək guya İ.Əbilovun Rusiyaya qarşı fəaliyyətdə olmasına görə geri çağırıldığını xəbər verirdi. Amma bu xəbər həqiqəti əks etdirmirdi. Qeyd etmək lazımdır ki, 1922-ci ilin əvvəllərində, çox ehtimal ki, səfirlikdə işləyən erməni əməkdaş onun haqqında anonim məktublar yazmışdı, buna görə onun işi yoxlanılmış, heç bir nöqsan tapılmadığına görə işini davam etdirməsinə qərar verilmişdir. Daşnak ermənilərin fitnələri bitmək-tükənmək bilmirdi. Akademik İsmayıl Hacıyevin elmi tədqiqatlarında qeyd olunduğu kimi, hələ 1921-ci ilin dekabr ayında səfirliyin yeni fəaliyyətə başladığı bir dövrdə Bakıda və Moskvada bu narahatlıqlar açıq müstəviyə çıxır. Həmin vaxt Azərbaycanda Nəriman Nərimanova yaxın olan müsəlman kommunistlərə qarşı başlanmış təmizləmə kampaniyası bir zamanlar qatı menşevizm tərəfdarı olmuş İbrahim Əbilovdan da yan keçmir. Bolşevik cildinə girmiş daşnak erməni quldurlarının və rusların əlində olan Bakı şəhər partiya təşkilatı, əsasən, 3 görkəmli azərbaycanlı diplomatı – B.Şahtaxtinski, Ə.Şirvani və İ.Əbilovu hədəfə alır. Diplomat Kommunist Partiyası sıralarından azad edilməsi ilə bağlı xəbəri aldıqda ciddi sarsıntı keçirir. N.Nərimanovun İ.Əbilova zamin durması ilə dekabr ayının 22-də o, partiya sıralarına bərpa olunur. Sonra isə N.Nərimanov İ.Əbilova məktubunda belə yazır: "Bu vaxta kimi apardığınız xətti-hərəkət düzdür. Ümid edirəm, bundan sonra da səhviniz olmasın". Yuxarıda qeyd etdiyimiz kimi, İ.Əbilov Azərbaycan, Rusiya və Türkiyə münasibətlərinin inkişafında böyük rolu olmuşdur. Rusiyanın o vaxtlar Türkiyədə olan səlahiyyətli nümayəndəsi Semyon Aralov onun haqqında yazırdı: "Əbilov bütün digər müsbət cəhətləri ilə bərabər, həm də böyük daxili mədəniyyətə malik bir insan idi". N.Nərimanov onun fəaliyyətinə yüksək qiymət verərək deyirdi: "Şərq xalqlarını Qərbi Avropa imperializminin zülmündən xilas etmək onun arzusu və həyat amalı idi".

1922-ci ilin payızından etibarən İ.Əbilovun erməni müşaviri Sovet Rusiyasının Ankara təmsilçisi Aralovla onun arasını vurmağa səy göstərirdi. Erməni daşnakları bəd niyyətlərindən əl çəkmək istəmirdilər (onlar nə qədər dövlət xadimizə qəsd etmiş, aradan götürmüşdülər) – İbrahim Əbilovu aradan götürmək istəyirdilər, hətta bu haqda gizli qərar da qəbul etmişdilər. Sonda onlar bu məqsədlərinə də nail oldular. Belə ki, onlar İzmir şəhərində keçirilən İqtisad konqresi zamanı (fevral 1923) tanınmış Azərbaycan diplomatını zəhərlədilər. Bildiyimiz kimi, Mustafa Kamal Paşa Azərbaycanın səlahiyyətli səfiri İ.Əbilovu və Sovet Rusiya səfiri Aralovu konqresə xüsusi olaraq dəvət etmiş və konqresdə çıxış etmələrini rica etmişdi. İ.Əbilov konqresdə nitq söyləmiş, gecə qəflətən halı pisləşmiş və üç gün sonra 23 fevralda, səhər saat 6-da vəfat etmişdir.

Atatürk cəmi 41 il ömür sürmüş görkəmli diplomatımızın, həyat yoldaşı Tamara xanıma iki qızı ilə (İ.Əbilovun kiçik qızına Atatürk Anadolu adını vermişdi) – bərabər, Türkiyədə qalmağı təklif etsə də, o buna razılıq vermir, Vətənə qayıtmaq arzusunu bildirir. Atatürkün göstərişi ilə Misir və Hindistandan dəvət olunmuş alimlər İbrahim Əbilovun cənazəsini mumiyaya tutub eyni gəmi ilə Bakıya göndərirlər. Azərbaycan Respublikasının Türkiyədə fəaliyyət göstərən səlahiyyətli səfiri İbrahim Əbilovun cənazəsi Bakıda böyük izdihamla qarşılanır. Bu böyük siyasi xadim indiki Şəhidlər xiyabanı ərazisində dəfn olunur.

İ.Əbilovun qızı Anadolu xanım Əbilova atasının faciəli taleyi haqqında yazır: "Demə, atamın faciəsi təkcə ölümüylə bitməmiş, qara qüvvələr sonralar da ondan əl çəkməyəcəkmiş...1941-ci ildə mən Bakıda Tibb İnstitutunun ikinci kursunda oxuyarkən İkinci Dünya müharibəsi başlandı. Könüllü olaraq cəbhəyə yazıldım. Müharibədən sonra cəbhədə ailə qurduğum həkim İskəndər İsmayılovla Bakıya qayıtdım. Atamın məzarını ziyarətə gedərkən qəbrin yerləyeksan olunduğunu gördük... Nə qədər axtarılsa da, dəmir qutuda basdırılan mumiyalanmış cəsəd tapılmadı. Deyəsən, İbrahim Məhərrəm bəyin qəbri də həmin qara qüvvə üçün təhlükə yaradırdı. Bu vəhşiliyi ermənilərdən başqa kim törədə bilərdi? Nəhayət, 1981-ci ildə görkəmli dövlət xadimi Heydər Əliyevin göstərişi ilə Fəxri xiyabanda atamın simvolik qəbri düzəldildi".

Azərbaycan dövlətinin Türkiyə Cümhuriyyətində ilk səlahiyyətli səfiri olmuş İbrahim Əbilov diplomatiyamız tarixində parlaq bir ictimai-siyasi xadim kimi yaşayacaqdır.

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

## Qəhrəmanlar unudulmur



Milli-mənəvi birliyimiz, Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük şanlı Qarabağ müharibəsində özünü daha bariz şəkildə göstərdi. Əsrlərin sınağından çıxmış, ulu əcdadlarımızın bizlərə miras qoyduğu torpaqlarımızın ərazi bütövlüyü uğrunda apardığımız haqq savaşında qəhrəman oğullarımız düşmənin məkrli siyasətini məhv edərək tariximizin səhifələrinə adlarını qızıl hərflərlə yazdırdı. Torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda fədakarlıq göstərən qəhrəmanlarımızın, o cümlədən Vətən müharibəsində fəal iştirak edən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun şəhidlik məqamına yüksələn hərbçilərinin xatirəsi isə dövlətimiz, xaqımız tərəfindən hər zaman əziz tutulur, onların mənalı ömür yollarının hər bir gəncə örnək olması üçün tədbirlər təşkil edilir. Bu silsilə tədbirlərin davamı kimi dünən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində şəhid polkovnik-leytenant Anar Əliyevin və şəhid kapitan Nihad Babayevin xatirəsinə həsr olunmuş "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirilib. Tədbirdə əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Mirməcid Seyidov qeyd edib ki, 44 günlük İkinci Qarabağ müharibəsində rəşadətli ordumuzun qazandığı zəfər, tarixtəmiz üçün böyük önəm daşımaqdadır.

Vurğulanıb ki, Vətən müharibəsində məğlub edilən düşmən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı birləşmələrinin gücünə "Günnüt əməliyyatı"ndan bələd idi. Hərbi qulluqçularımız "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarı ilə irəliləyərək düşmənin bir çox canlı qüvvəsini, texnikasını məhv edib bayrağımızı Şuşa şəhərində dalğalandırdı və dövlətimizə, xalqımıza əbədi zəfər gətirdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızın azadlığı uğrunda həyata keçirdiyi əks-hücum əməliyyatında öz şücaəti ilə seçilərək şəhidlik məqamına yüksələn qəhrəman Vətən oğullarının əziz xatirəsi daim böyük hörmət və ehtiramla yad edilir, şəhid ailələri və qazilərimiz dövlətin hərtərəfli qayğısı ilə əhatə olunur.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr və 15 dekabr tarixli sərəncamları ilə şəhid polkovnik-leytenant Anar Əliyevə və şəhid kapitan Nihad Babayevə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, eyni zamanda onlar "Vətən uğrunda" medalı ilə təltif olunublar. 2021-ci il iyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" adının döş nişanı və vəsiqəsi, "Vətən uğrunda" medalları şəhidlərimizin ailə üzvlərinə təqdim edilib.

Daha sonra şəhidlərimizin xidmət yoldaşları polkovnik Rüstəm Cavadov, polkovnik Haqverdi Dadaşov, mayor Əlqəm Gözəlov, kapitan Əli Kərimov və şəhid polkovnik-leytenat Anar Əliyevin qohumu Vüsal İsmayılov şəhidlərimiz haqqında öz xatirələrini bölüşüblər. Tədbirdə hərbçilərimiz və Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru tərəfindən vətənpərvərlik mövzusunda şeirlər bədii qiraət olunub.

Sonda Naxçıvan Qarnizonu Hərbi Orkestrinin ifasında Xüsusi Təyinatlılar Marşı səsləndirilib.

**Məcid RƏŞADƏTOĞLU**

## Elm məbədinin mənəvi xəzinəsində kitabların pıçıltısı

*(Oxunması zəruri olan kitablar əsasında esse)*




Vətən eşqilə can verən şair! Nə vardı bədən olsan, verərdik qarşında can. Göz yaşlarım elə hey axır Araz kimi! Öz yurdunu bu qədər sevən, sevgisini ulu bir dağa sığdıran Vətənə, elə, obaya, adət-ənənələrə bu qədər bağlı olan yarım qalmış Şəhriyarla vidalaşaraq ona qonşu olan "Qoca və dəniz"ə üz tuturam. Mübarizəsindən bir an olsun belə, əl çəkməyən qoca "İnsan övladı məğlubiyyət üçün yaranmayıb. Onu məhv etmək olar, ancaq məğlub eləmək olmaz" fikrini də səndən öyrənərək addımlamağa davam edirik:

*Ah mən gündən-günə bu gözəlləşən,*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən,*
*Dostdan, aşinadan necə əl çəkim?*

İlahi, bu ki istibdadda olan Müşfiqdir. Ömrünün 29-cu qışında Dilbərinin gözündən gilə-gilə düşən Müşfiqim. Közü-közə caladığın, papirosunun xısı belə, rəsminə çökmüş "yarım qalan" Müşfiqim!!! Dərdini ömrünün qaranlıq macərasında gizlədən, səsi hıçqırıq, nəfəsi buz kəsmiş, hər ahı bir duman olub öz yolunu kəsən Müşfiqim! Həyat ondan küsənləri incidər, ömrünü kəsər. Yarım ömürlər ilə öz ömür yazısından bir çiçək belə, dərə bilməyən Müşfiqim, oyan daha, bu gün qabarıb Xəzər, qalxıb tərlan ləpələr, qanadlarını açaraq o tarixə acıyır. İşıqlı dünyaya sevgimizdən oyanıb yuyunasan deyə gözünə çəkdiyimiz baxışlarımızda gizlətdik səni:

*Yüz dəfə yansaq eşq oduna, qorxu bilmərik,*
*Çünki diyarımız bizim odlar diyarıdır,* – deyən Vahid qonşu rəfdən arxanızca xeyir-dua verərək piyalədə eşq meyini başına çəkir, Müşfiqim. Zeyd bir küncdə inzivaya çəkilərək Leylinin Məcnuna xısın-xısın ağlamağına davam edir. Bir neçə oxucu Cek Londonun "Həyat eşqi"ni soraqlaşa-soraqlaşa rəflərin arasında gəzişir. Yaşamaq uğrunda mübarizədən bəhs edən bu əsəri axtarır. Olumla ölüm arasındakı bu əsəri ona məsləhət görüblər oxusun. Kimsə ona deyib ki, əsərdə ümid var və o, başqadır, o, gördüyünə inanmır, idrakla hesablaşmır. Bir ümid qapısı görüb kitabxananı və öz arzularına çatmaq istəyir... Tikanlıqda şərqi deyən Meggi yer üzünün ən gözəl nəğməsini oxumaq üçün həyat satıb ölüm alır... Qarşı rəfdən Remark səslənir! Mənim anam, bacım, kəpənək dolu qutum və qırmızı ağacdan olan pianom buradadır, amma mən hələ burada deyiləm. Aramızda bir pərdə, keçilməli olan bir addım var. Mən hələ də bizim üçün ölümə səbəb olan xərçəng, vərəm, qrip, dizenteriyadan da ölümcül olan müharibənin qanlı səngərlərində çabalamaqdayam... Çexov qarışır sözə: – Mən inanıram ki, heç bir şey iz buraxmadan keçmir və ən kiçik hərəkətimiz, hər addımımız gələcək həyatımız üçün əhəmiyyət daşıyır. İngilis casusu etiraf edir Çexovun sözünü... Əgər birisi sizə bələd olmadığınız qaranlıq bir yol göstərsə, işığı tapmadan yola düşməyin. Bu anda Avraam Linkolnun oğlunun müəlliminə məktubu gözümə toxunur. İlahi, sadəcə, iki vərəqdən ibarət olan bu məktub bizə Hemferin sözlərini açmaqda kömək edir. O deyir: "Valideynin övladını yeganə tərəddüdsüz etibar etdiyi şəxs müəllimidir. Çünki o, kiminsə oğlunu və qızını deyil, millətin, xalqın gələcək vətəndaşını yetişdirir. Müəllim həm də gələcək üçün birbaşa cavabdehlik və məsuliyyət daşıyan bir insandır. Qarşı rəfdən Drayzer "Dahi"lərdən misal çəkir bizə: – Həyat məhz belə olmalıdır – sağlamlıq, qüvvə, xeyirxahlıq, qarşılıqlı anlama və sadə, səmimi münasibət. Polad necə bərkiyər? "Kökü torpağın dərinliklərinə enən güclü və sağlam bir ağac başı kəsilsə belə, ölməz" buna sübut deyilmi?

Qarşımda gözəl bir bağça var. Rəssam, sanki bahar fırçasını göyqurşağına batıraraq bu bağçaya rəng verib. Yaşılyarpaqlı sarı güllər üzərinə qonan bülbüllərin, sanki rəsmini torpağa çəkib bu bağça. Bir izdiham var, İlahi! Bu nə səs-küydür belə? Rəngini göylərdən almış başı buludlara dəyən bir məbəd var bu bağçada. Elm xəzinəsinin mənəvi məbədi olan kitabxana. Öz rəflərində illəri və dahiləri bir məkanda və zamansız bir-birinə mehman edən kitabxana. İlahi! Bu kitab rəfləri arasında nələr gizlənib, nələr. Görəsən, bizi də kitab kimi ağ cildə büküb sonuncu mənzilə yola salacaqlar? Deməli, onda ölən yox olmur, yoxluq necə var olar? Budur, qulağıma səsi gəlir Sokratın, Zərdüştün, Nizaminin, Nəsiminin, Mövlana və Sədinin, haray salıb Arazın o tayında Şəhriyar, Nargində güllələnən Müşfiq, Sibirdə "Mənim Tanrım gözəllikdir, sevgidir", – deyən Cavid. Oxunur Tövrat, Zəbur, İncil və Quran. İlk əmri oxumaqla başlayır bu kitabların. Rəngbərəng fonda oxucuların üzünə taybatay açıq, "xoş gəlmişsiniz", – deyən qapıları var bu kitabxananın. Aləmdəki ən sakit və ən hüzurlu məbəddir kitabxana. Bizdən əvvəl və sonra var olan, dil-dodaqla dərilən ləzzətin duyulmasıdır kitabxana. Kimisi oxuduğu qəhrəmanla baş-başa qalır, kimisi tarixin bir küncündə qısılır, kimisi isə dünyamızı gözəlləşdirən kitablarla ömrünə su səpərək başqasının yolunda gül əkir bu məbəddən apardığı kitablarla. Öz maviliyini göyqurşağından ödünc almış bu kitabxanada bir canlanma, bir xoş avaz var. Oxucu masaları yavaş-yavaş öz sakinlərini qucaqlayıb bağrına basır. Fərq qoymur irqlərə, cinslərə, millətlərə, dövlətlərə. Burada qapılar açıq, burada ürəklər açıq, gəl, ayağıçarıqlı keç yuxarı başa çıx. Burada hər kəs ayrı bir sevgi ilə Cənnətin kölgəsini yaradır, eyibləri göstərən güzgülər qırılmır, ya göyə çəkilir, ya göy çəkilir aradan... Allahın kəndirinin bir ucu bu kitabxanadadır. Möhkəm sarıldıqca biz bu sağlam kəndirə, qalxarıq Allahın layiq bildiyi yerə. Oxucunun könlü lövhədir. Bu lövhəyə həkk olunan nümunələr həyatdakı ən mötəbər töhfədir.

Kitabların pıçıltısı eşidilir bütün rəflərdən... "Bizi oxu, bizi oxu", – deyə. Elə ilk əmri oxumaqla başlayan kitablara toxunaraq tozlu rəflər arasında kamilliyi və müdrikliyi ilə aləmə incilər saçaraq:

*"Ölçülüb biçilərsə, incə fikir, incə söz,*
*Nə qədər gözəlləşər, olar ürəyincə söz".*
*Kim ki, sözə söz qoşub tapar haqqın səsini,*
*Sözlə iki aləmin açar xəzinəsini,*– deyən Şeyx Nizami bizə "Sirlər xəzinəsi"ni oxuyub Allahın ədəbi ilə ədəblənməyimizi, biliklə, hünərlə ölümsüz olmağı tövsiyə edir:

*Heydərbaba, yolum səndən kəc oldu,*
*Ömrüm keçdi, gələmmədim, gec oldu,*
*Heç bilmədim gözəllərin necoldu?*
*Bilməz idim döngələr var, dönüm var,*
*İtkinlik var, ayrılıq var, ölüm var...*

Səs gəlir... nisgilli və yorğun! Ayaq saxla, cavan! Ağsaçlı, məhzun üzlü, qəmli və yarım qalan tabloda Şəhriyarı görürük. Bu dünyadan bayram yeli kimi əsib keçən, ruhumuzda əbədi yara buraxan, ömrünü qara günlərlə keçirib ah-vay edən, sonsuz arzularını, saysız diləklərini baxışlarında söndürüb kiçik tabutuna sığdıran Şəhrinin – yarı Şəhriyar arxasında, onu sevən, onu hiss edən, çiyinlərdə Şəhriyar yükünü daşıyan bir cahan qoyub getdi. Səndən keçən dünya bizə nə qədər yad, nə qədər özgədir artıq. Sənə nağıl danışım: "Qurd keçinin Şəngülümün yenə yesin", külək qalxsın qapıbacanı döysün, sən də yenidən uşaq ol, uzaq düşdüyün elinə qayıt, gözümdən yaşlar axdıqca sənə çıraq olub yol açım! Dirildib Aşıq Rüstəmin sazını dilləndirim, sənin o yatmış bəxtini, o pərişan qəlbini, bəlkə, beləcə, oyada bilim... Heydərbabadan haray salıb, Arazın göz yaşlarını qurudum, sənə ömür salım! İçində yaşayan bir ölünü – Sürəyyanı diriltdib çağırım Turi-təcəlləyə, sən də Musa olub o uzun səfərdən qayıt bizə. Səssiz qalmış rəflər arasından səslənirəm?! Hanı günbəgün qəddini əyib yaşadaraq öldürdüyün, indi isə öldürüb yaşatdığın Şəhriyar?! Susur hər kəs, susur hər şəhər... Kaş görəydin hicran odunu köksümüzə kim saldı.

Gəlin ruhumuzun səssizliyini eşidib pıçıltılarımızı dualarımız ilə Allaha çatdıraraq "kitab adam" olaq. Bu mavi məbəddə faydalı, oxunması zərurətdən doğan kitablara əyilərək ucalmaq varkən niyə ucalaraq məğrurlaşmayaq? Gəlin dəstə-dəstə gedək "Allah-Allah deməyincə işlər olmaz", – deyən Dədəmiz Qorquddan xeyir-dua alaq, Sədinin "Gülüstan"ından əmin olaraq başqasının şübhəsindən narahat olmayaq, Ruminin məsnəvisindən ruhlanaq, qanadlanaq və göylərə uçaq. Nizaminin sirlərində öyüd, Nəsiminin hürufларında söz, Aşıq Ələsgərə qoşulub xalq ədəbiyyatında dastan, Ordubadinin qılıncında qələm, dumanında Təbriz, Şəhriyarın Araz həsrətli gözlərində qayıq olaq, Cavidin "Azər"inə sirdaş, Müşfiqin xəyalındakı Xəzər olaq. Biz oxuyaq, onlar pıçıldasın... Bizi oxu... Bizi oxu! – deyə!!!

**Fariz ƏHMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasının direktoru***

*44 günlük zəfər yürüşündən sonra 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız bizə qaytarıldı. Sanki bir qanadı qırılmış xəritəmiz igid oğullarımızın köməyi ilə, qanı ilə birləşdi, yenidən bərpa olundu. Haqq savaşında minlərlə igidimiz ömürlərinin ən gözəl çağını bu cənnətməkan torpağa qurban verdi. Torpağı Vətən edən şəhid qanı onu müqəddəsləşdirdi, gələcək nəsillər üçün daha da doğmalaşdırdı. Ölümləri ilə ölümsüzlüyə ucaldı onlar.*

*Estafet*

## Ən ali şöhrət zirvəsidir şəhidlik məqamı



İkinci Qarabağ müharibəsində yeni tarix yazanlar sırasında Naxçıvan igidlərinin də payı oldu. Bu Vətən müharibəsində Naxçıvan torpağının ölümsüzlüyə ucalan şəhidlərindən biri də Güloğlan Nurəddin oğlu Qədimov olub. Bir bacısı və bir qardaşı olan Güloğlan 1997-ci il iyulun 17-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya gəlmişdi. Səmimiyyəti, mehribanlığı, istiqanlılığı ilə seçilən sadə və zəhmətkeş ailənin övladı məhz bu xoş xasiyyətinə görə hamı tərəfindən sevilirdi.

Güloğlan 2003-cü il Qıvraq qəsəbəsində yerləşən 2 nömrəli tam orta məktəbdə ilk təhsilini almışdı. Qəsəbədəki hərbi hissənin lap yaxınlığında yerləşir bu məktəb. Hər gün dərsə gedərkən hərbi təlim keçən, nizamla bir sırada addımlayan əsgərləri müşahidə etmək nə qədər xoş idi bir məktəbli üçün. Hətta bəzən bu mənzərəni seyr etdiyi üçün az qala dərsə gecikirdi. Amma əsgərlərin nizam-intizamı ona da təsir edir, hər dəfə dərsə vaxtında çatmağa çalışırdı. Sinfə isə, sanki şagird kimi deyil, əsgər kimi daxil olurdu. Hədəfi gələcəkdə peşəkar hərbçi olmaq idi. Çünki müəllimləri Azərbaycan torpağının 20 faizinin işğal altında olduğunu bütün dərslərdə deyir, şagirdləri vətənpərvər ruhda yetişdirir və Qarabağ torpağının gec-tez Azərbaycana qayıdacağına inam aşılayırdılar.

Elə müəllimlərinin mübariz ruhlu tərbiyəsi sayəsində Güloğlan dərslərini daha yaxşı oxumağa çalışırdı. 2014-cü ildə Heydər Əliyev adına Hərbi Liseyə verən Güloğlan imtahanlardan uğurla keçdi. 2018-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsilini başa vurub hərbi hissələrdən birində leytenant rütbəsi ilə xidmətə göndərildi.

Güloğlan arzusuna çatmışdı. İndi onun çiynində daşıdığı ulduzların işığı işğal altında olan Qarabağ torpağında şölə saçmalı idi. Gənc leytenant ilk gündən öz bacarığı ilə bir zabit kimi fərqləndi. Yüksək komandanlıq onu biliklərini daha da təkmilləşdirmək üçün Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə yolladı. Biraylıq motoatıcı bölük komandiri kursunu uğurla bitirdi.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində ilk günlərdən Füzuli istiqamətində gedən döyüşlərə qatılan Güloğlan döyüşlərdə qəhrəmanlıqla iştirak edirdi. Müharibənin ilk günlərində döyüş yoldaşları ilə düşmənin möhkəmləndirilmiş bir neçə postunu ələ keçirə bilmişdilər. Qarşıda isə Şuşa onları gözləyirdi. Döyüş, savaş, qələbə arzusu ilə alışıb-yanırdı. Güloğlan döyüşlərin ara verdiyi bir vaxtda ailəsinə zəng vurur. Həmin an şəhid olacağı ürəyinə damır. Amma heç nəyi hiss etdirməmək üçün ailəsi ilə soyuqqanlıqla danışır. Qardaşına "Hər şeyə hazırlıqlı olun", – deyərək ailəsini ona əmanət edir. Telefonda səsindəki həyəcandan yaxınlarının narahat olacağını düşünür və bibisi qızına mesaj yazaraq, ürəyini boşaldır: "Sizə şad xəbərim var... Mən ən uca zirvədə olacağam!" Bibisi qızı elə başa düşür ki, onun xidməti vəzifəsini və rütbəsini yüksəldirlər. Bununla bağlı olaraq onu təbrik edir. Güloğlan isə: "Ondan da uca zirvədə – şəhidlik zirvəsində olacağam", – deyə cavab yazır və 2020-ci il oktyabrın 1-də qəhrəmancasına şəhidlik məqamına yüksəlir...

Çox böyük bir izdihamın müşayiəti ilə o ən müqəddəs bir məqam – şəhidlik məqamıyla, Azərbaycan bayrağına bükülmüş nəşi ilə qalib ordunun əsgəri kimi evinə, doğulduğu obaya döndü... Qəhrəmanımızın nəşi Qarabağ döyüşlərinin qələbə ilə başa çatmasından 35 gün sonra – dekabrın 14-də doğulduğu Kəngərli rayonunun Qıvraq qəsəbəsində torpağa tapşırıldı. Qəhrəman şəhidimiz ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalına layiq görüldü.

Güloğlan ailəli deyildi. Amma onu gözləyən bir sevgilisi vardı. Ona söz vermişdi ki, qayıdıb qızın barmağına nişan üzüyü taxacaq... Son döyüşə getməzdən əvvəl ailəli olan yoldaşlarını bir yerə yığmışdı və onları gözləyən uşaqların, həyat yoldaşlarının, gözü yolda qalanların olduğunu və hər kəsdən qələbə müjdəsi gözlədiklərini demişdi. Bu yolda ölməyin isə şərəfli olduğunu, xüsusilə vurğulamışdı.

Biz gənclər Güloğlan Qədimov kimi qəhrəmanlarımızla həmişə fəxr edəcəyik. Düşmən tapdağı altında qalan torpaqlarımızı bizə qaytararkən Güloğlan da ən böyük qürurumuz, bu Vətənin əbədi övladı oldu! Bacısının ona həsr etdiyi şeirdə dediyi kimi:

*Qoy anan fəxr etsin sənin adınla,*
*Atan qürurlansın şərəf, şanınla.*
*Körpələr çağrılsın sənin adınla.*
*Şöhrət zirvəsinə şəhid qanıyla*
*Əbədi həkk olan igid qardaşım!*

**Aysel İSAZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

### *İtmişdir*

Tahirov Tərxan Hüseyn oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Həsənli Nurəddin Qulu oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Nəsibov İlham Elbəyi oğlunun adına olan 75-BA-825 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 693**